Kredo 2023.-07dekabr,№43-44.-S.15



***İltimas SƏMİMİ***
***Azərbaycan Yazıçılar Birliyi üzvü***
***Prezident mükafatçısı***

**BİR DƏ DÖNÜB GƏLMƏYƏCƏK**

Özünlə apardı
Ümidsiz baxışlarını,
Ürəkləri köz-köz yandıran
Kövrək səsini.
Nə ayaq səsi eşidilər,
Nə kölgəsi görünər.
Bircə xatirələrindən
Başqa,
Bu yer üzündə
Heç nəyi yox imiş...
Bir ovuc sözə bükülüb,
Getdi əbədi yuxuya.
Sözü yuxu qoxuyurdu,
Yuxusu söz.
Bir də dönüb gəlməyəcək.
11.11.2023.

**KƏSİR ÖMRÜMDƏN**

Gördüyüm göy üzü,
Dənizin coşğun dalğaları,
Ümidsizlikdən
Hay qıran yollar,
Arzularımı üşüdən
Payız yağışı
Məni hönkür-hönkür ağladan
Yuxulara bənzəyir.
Elə bil
Başımın üstə
Qara ruhlar dolaşır.
Gözümə od görünür,
Dörd yanımda fəryad qopur,
Daşlar "ah" çəkir,
Torpaq hayqırır.
İçimi bürüyən ölüm xofu,
Canıma daraşan küt ağrılar,
Üstümə əssən səbirsiz küləklər
Arşın -arşın kəsir ömrümdən.
15.11.2023.

MƏHƏBBƏT DEYİR

Hələ bu ocağın qoru sönməyib,
Hələ arzuların payızı deyil.
Hələ üstümüzə kədər enməyib,
Həsrətin nə çoxu, nə azı deyil.

Hələ bir-birini görə bilirik,
Nə yaxşı bu adda bir ünvan var-
dır.
Hələ içimizdən dərdi silirik,
Hələ payız bizə isti bahardır.

Birlikdə bu yolu adlayacağıq,
Nə ürək yorular, nə can inciyər.
Hələ ki kədərdən, qəmdən uzağıq,
Dilim eşq söyləyir, məhəbbət deyir.
16.11.2023.

**KƏDƏRDİR**

Hələ şirin-şirin yatmaqda idi,
Hələ qarlı qışa üşüməmişdi.
Yol uzun, güc dizdə, addımlar iti,
Vaxt ötdü yel kimi, bu nə gedişdi.

Dönüb arxaya da baxmayıb, getdi,
Zamanın hər anı bir xatirədir.
Bu uzun yollara nəğmələr dedi,
Ümidi, gümanı bir xatirədir.

Ruhunu duyan kim, kədəri böyük,
Elə bil içində həsrət göyərdi.
Bilirdim, çiynini əyəcək bu yük,
Bəxtinə yazılan acı kədərdir.
16.11.2023.

**OD ƏLƏYİR**

Dayan, saxla əlini,
Başımın üstündə
Buludlara dəymə.
Sirdaşımdır,
Həmdəmimdir.
Dərdləşirik bulud-bulud,
Yağış-yağış,
Şimşək-şimşək.
Dərdləşirik söz-söz,
Misra-misra,
Şeir-şeir.
İçimdəki dərd soyuyur,
Ağrılarım bulud-bulud axıb gedir.
Ruhum bulud,
Ruhum yağış,
Ruhum şimşək.
Yer üzünə kölgə salır,
Yağış səpir,
Od ələyir.
16.11.2023.

**CAVABSIZ QALMADI**

Yuxuda Tanrıya
Yazdığın
Məktubların cavabıdır,
Gördüyün gerçəkliklər.
Səhərin doğulması,
Küləyin əsməsi,
Yağışın pıçıltısı.
Şəhərdəki izdiham,
Arxanca yüyürüb gələn insanların
Ayaq səsləri,
Qarşılaşdığın insanların
Üzündəki sevinc,
Kədər...
Bircə məktubun da
Cavabsız qalmadı.
22.11.2023.

**O BƏXTƏVƏR ÇAĞLARIN**

O tellər sığaldan
Hələ inciməmişdi.
O ürək həsrətin nə olduğunu
Hələ bilmirdi.
O gözlər dənizi
Çox sevərdi.
Nəfəsi dənizin
Dalğaları kimi,
Sükutu pozardı.
Addım səslərindən
Yollar diksinərdi.
O baxışda bir ayın işığı qədər
Təbəssüm varyıdı,
Görən heyrət içində
Unudardı hər şeyi.
Daha geriyə dönməz
Xatirələrə dönmüş
O bəxtəvər çağların.
27.11.2023.

**ONDAN RAHAT**

Boyundan daha böyük
Bu ağrını,
Bu həsrəti daşımaq da
Bir əzabdır.
İntizardan göz yaşarır,
Yanaqlara yaş süsülür.
Ürəyin arzuları
Yarpaq-yarpaq solub gedir.
Son ümidi,
Son gümanı
Son mənzilə bir qarış yol.
Sökülən dan,
Doğan səhər,
Son səhərmi?
Bilinməyir.
Bilinsəydi,
İnsan onda nə həyəcan
Keçirərdi?
Bəlkə ölüm ondan asan,
Bəlkə ölüm ondan rahat.
02.12.2023.

**YUXUSU**

Əlləri əsdikcə
Üzündə bir əsrin əzabı,
Min ilə dönmüş
Bir qarış yol bitmir .
Dörd tərəfi susuz səhra,
Başının üstündə qızmar günəş.
Nə bir xatırlayan var,
Nə halını soruşan.
Arxanca sürünən kölgən
Bir gün səssiz-səmirsiz
Yox olar.
Ruhun tanrıya əmanət
Qarışar bir qarış torpağın yuxusu. .
03.12.2023